**UOT 82.02**
**https://doi.org/10.59849/2218-4783.2024.2.203**

**RAMİZ QASIMOV**

# TƏNQİDİ REALİZMİN ƏDƏBİ-NƏZƏRİ ƏSASLARI

*Məqalədə tənqidi realizmin ədəbi-nəzəri əsaslarından bəhs edilmişdir. Göstərilmişdir ki, Azərbaycan ədəbiyyatında XX yüzilliyin əvvəllərində formalaşan ədəbi cərəyanlardan biri tənqidi realizmdir. Milli-ictimai düşüncədə ciddi tarixi dəyişikliklərin olduğu, yeni ictimai-iqtisadi tələblərin ortaya çıxdığı, inqilabi epoxanın mövcud olduğu bir vaxtda tənqidi realizmin meydana gəlməsi təbii və lüzumlu idi. Məlum olduğu kimi, tənqidi realizm romantizmə reaksiya olaraq yaranmışdır. Daha çox "Molla Nəsrəddin" jurnalı ətrafında mərkəzləşən bu bədii üslub ədəbi cərəyana çevrilmişdir. Cəlil Məmmədquluzadənin gətirdiyi ədəbi yeni ədəbi ənənələr onun yaradıcılıq örnəkləri və "Molla Nəsrəddin" jurnalı əhatəsində M.Ə.Sabir, Ə.Qəmgüsar, Ə.Nəzmi, Ə.Haqverdiyev, M.S.Ordubadi, Y.V.Çəmənzəminli, Ü.Hacıbəyov və başqaları tərəfindən davam etdirilərək ədəbi hərəkata çevrilmişdir. "Tənqidilik" tənqidi realizmin əsas, başlıca keyfiyyətidir. Tənqid yıxmaq, dağıtmaq və islah etmək anlayışlarını daha çox ehtiva edərək həm də düşüncə, idrak metoduna çevrilmişdir. Varlığın mahiyyətinə enmək və ona bütün tərəflərilə qiymət vermək, olanı və olmayanı, doğrunu və yanlışı göstərmək tənqidi realizmin başlıca xüsusiyyətlərindəndir. Buna görə də şübhəçilik tənqidi realizmin əsas səciyyəvi keyfiyyətlərindəndir. Xalqın və ya fərdlərin gözündə ideallaşmış, müqəddəsləşmiş anlayışların şübhə yolu ilə dağıdılması və pozitiv mövqedən yenidən yanaşılması tənqidi realist üslubun xüsusiyyətlərindəndir. Buna görə də Azərbaycan tənqidi realizmi klassik irsə, xüsusilə şifahi xalq ədəbiyyatına söykənərək xalq gülüşü və yumorundan istifadə etmiş, onu ədəbi üslubun başlıca xüsusiyyətinə çevirmişdir. Bu xüsusiyyətlə üzərində də yeni lirik şeir – satirik poeziya yaranmışdır. C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli daha çox bədi nəsrdə, M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Qəmgüsar və M.S.Ordubadi isə poeziyada bu üslubu inkişaf etdirmişlər. Bu vəsilə ilə tənqidi realizm xalqın milli oyanışına böyük töhfələr vermiş, inqilabi hadisələrin hazırlanmasında yaxından iştirak etmişdir. Ümumiyyətlə, Azərbaycan tənqidi realizmi oxucuda ictimai həqiqəti dərk etmək və fəal münasibət sərgiləməkdə böyük ədəbi rol oynamışdır.*

**Açar sözlər**: *tənqidi realizm, ədəbi-nəzəri əsaslar, Azərbaycan tənqidi realist ədəbiyyatı, tənqidi düşüncə metodu.*

Hər bir xalqın ədəbiyyatında yaranan tənqidi realizm nə qədər dünyəvi ictimai, siyasi və ədəbi hadisələrlə bağlıdırsa və beynəlmiləl xüsusiyyətlər kəsb edirsə, bir o qədər də milli-tarixi inkişafın nəticəsi olaraq ümummilli fikir, ədəbi ənənə, milli iradə, ictimai düşüncə ilə əlaqədar olaraq milli xüsusiyyət və ədəbi-estetik keyfiyyətlər ehtiva edir. Bu mənada tənqidi realizm ədəbi cərəyanı dünyəvi və milli hadisə olmaqla özünəməxsus səciyyəyə, ədəbi-estetik, nəzəri əsaslara malikdir. Adından da məlum olduğu kimi "tənqidilik" tənqidi realizmin səciyyəvi xüsusiyyəti, onun ədəbi-estetik prinsipidir. Lakin artıq deyildiyi kimi, əvvəla hər cür tənqid tənqidi realizm demək olmadığı kimi, fikrimizcə, tənqid də yalnız nöqsanları göstərmək, dağıtmaq, məhv etmək anlamı daşımır. Belə ki, otuz bir mənada anlaşılan "critical" – "tənqidi" sözünün geniş yayılan mənaları içərisində *"tənqidi nöqteyi-nəzərindən, dəyərləndirmə məqsədilə edilən, nöqsan tapmaq məqsədilə söylənən, tənqid edən, titiz, tənqidi, təhlili, islahatçı"* [17; 18] kimi mənaları daşıyır. Mahiyyət, məzmun etibarilə "tənqid" "*ayırd etmək, ümumi mənada kimisə, nəyisə hər hansı bir mövzuda doğru və yaxud səhv tərəflərini araşdırıb ortaya çıxartmaq"* [9, s. 190-191] mənasını ifadə edir. Mənbələrdəki fikirləri nəzərə alsaq və bədii materiallardakı fərqlilikləri də praqmatik olaraq dəyərləndirsək, qətiyyətlə təsdiq edə bilərik ki, birbaşa realizmlə tənqidi realizm çox ciddi formada bir-birindən fərqlənir. Belə ki:

*"Birbaşa realizm-qavrayış nəzəriyyəsidir, belə ki, hisslər bizə xarici dünyanın birbaşa dərk etməsini təmin edir. Əksinə, dolayı realizm və reprezentativlik iddia edir ki, biz yalnız xarici dünyanın daxili reprezentasiyalarını bilavasitə dərk edirik. Digər tərəfdən, idealizm, dünyanın ağıldan asılı olan fikirlərdən ayrı olmadığını iddia edir"* [16]. Diqqətə alsaq ki, birbaşa realizmdə obyektlər gerçəklikdə olduğu kimi hisslərlə qavranılır, lakin tənqidi realizmdə varlıqların qavrayışı sanki dəqiqləşdirilir, reprezentativ dərk, yəni obyektin bir hissəsinin dərki o obyektin bütövlükdə dərkinə imkan verməlidir fikri tənqidi realizm üçün əhəmiyyətlidir. Diqqət edilsə, "tənqid" sözü öz məna tutumunda, məzmununda nöqsanları göstərməklə bərabər, islah etmək xüsusiyyətini də ehtiva edir. Fikrimizcə, çoxsaylı məna daşıyan "critical – tənqidi" sözünün "islahatçı (qurucu, həlledici), təhlili" mənaları bu ədəbi fikir cərəyanının mahiyyəti, fəlsəfəsi və estetikasına daha çox uyğun gəlir. Bizim fikrimizcə, anlayışları – həyatı və şəraiti, məqsədi və məramı aydın realistcə düşünməyə və dərk etməyə çağırışla bərabər yenidən baxmağa, əksini görməyə, mənalandırmağa – tənqidi dəyərləndirməyə və yerbəyer etməyə çağırış, missiya tənqidi realizmin əsl mahiyyəti kimi səciyyələnir. Hadisələri göründükləri kimi ortaya qoymaqla doğru görünəni ifadə etmək, doğruluğu sənətə gətirmək [19] tənqidi realizmin mühüm ədəbi-estetik keyfiyyətlərdən biri kimi çıxış edir. Ədəbi cərəyan olaraq tənqidi realizmin üslubi xarakteri, C.Məmmədquluzadənin də özünün dediyi və səciyyələndirdiyi kimi, *"öz millətinin qüsurunu yazmaq"* [5, s. 178], *"özümüzü quru tərif və yalançı alqışlarla yox, məhz acı həqiqəti meydana qoymaqla maarif evini abad etmək"* [5, s. 233], *"tərifi tərsinə qurmaq"* [5, s. 249], *"yaxşılığa yamanlıqla cavab vermək"* [5, s. 249], yəni *"yamanlığımız məcmuəmizin təbiətindəndir"* [5, s. 249], deyə yaradıcılıq üslubunun xarakterini aydınlaşdırmışdır. Burdan da göründüyü kimi, tənqidi realizmin naturalizm və maarifçi realizmdən (pozitivizmdən) əsas fərqli tərəfi, yaradıcılıq keyfiyyəti sadəcə hadisələri olduğu kimi göstərmək deyil, olmalı olduğu kimi qavratmaq məqsədilə təqdim və əks etdirmək idi. Bu da bir həqiqətdir ki, XX yüzilliyin 50-ci illərində Avropa fəlsəfəsində tənqidi dərklə məntiqi pozitivizmi, başqa formada pozitivist fəlsəfə ilə naturalizmi birləşdirərək Roy Baskar tərəfindən meydana gələn tənqidi realizm fəlsəfəsi də məhz Karl Marksın bu məşhur fikrinə dayanırdı: *"Nə olardı ki zahiri görünüşlə şeylərin özü eynən uyğun gələydi, onda hər cür bilik [elm] gərəksiz olardı"* [20]. Bu cəhətdən tənqidi realizm həm ədəbi cərəyanın adı, həm də ədəbi cərəyanın söykəndiyi yaradıcılıq metodunun xarakteridir. Yəni tənqidi realizm hər şeydən əvvəl bir düşüncə, idrak metodudur. Bir çox mənbələr tənqidi realizmi ictimai dərk metodu olaraq xarakterizə edir [11]. Təsadüfi deyil ki, XVII-XVIII yüz il fəlsəfi inkişaf dönəmi elmi ədəbiyyatlarda "tənqidi düşüncə dönəmi" olaraq səciyyələndirilir [11]. R.Baskar 1950-ci illərdə "Naturalizmin mümkünlüyü" adı məşhur əsərilə yeni bir fəlsəfənin əsasını qoymuş və sonralar onun bu fəlsəfəsinin adı "tənqidi realizm" adlandırılanda R.Baskar özü də bu anlayışı qəbul etmiş və tamamilə haqq vermişdi. Bu mənada tənqidi realizm varlığın yenidən qavrayış və dərkidir [Hər şey ontolojinin içində yer alır… hər şey gerçəkdir [10, s. 142].

Sənətdə, o cümlədən bədii ədəbiyyatda tənqidi realizmi səciyyələndirən və fərqləndirən başlıca xüsusiyyət onun qəhrəman və hadisələrə ictimai məzmun verməsi, xüsusilə ictimai münasibətlər daxilində təqdim etməsindədir. "*Bu tərz gözlənilən fərdi və ya ictimai həqiqətlərin bəlli bir dünyagörüşü müstəvisində tənqidə məruz qalaraq anladılmasını əsas məqsədə çevirir. ...sosial, iqtisadi, mədəni, siyasi şərtlər içində təsvir etdikləri insanları, hadisələri, vəziyyətləri bəlli bir tənqid süzgəcindən keçirərək diqqətə çatdırırlar"* [21]. Bu realizmin əsas, başlıca xüsusiyyəti *"gülünc olan varlığı və qüvvələri, sinifləri və məfkurələri gülgü və*

*satira ilə ifşa, rədd və inkar etmək, tərəqqi və mədəniyyətin yolunu təmizləmək, din, xurafat və mövhumatı ortadan qaldırmaq idi"* [8, s. 66-67]. Mir Cəlalın sözlərilə desək, *"bu realizmə ona görə tənqidi realizm deyilir ki, tənqid bu üslubun başlıca xüsusiyyəti idi. Köhnə cəmiyyətin əsrlər boyu davam edən feodal-patriarxal münasibətlərini yıxıb-dağıtmaq, insanların hərəkətini, şüurunu sustaldan bütün dini, siyasi ehkamları rədd etmək bu üslub sahiblərinin böyük tarixi vəzifəsi və xidməti idi"* [7, s. 57-58]. Bu mənada konkret ictimai-tarixi şəraiti, ictimai ehtiyac və hadisələri dəqiq və doğru müşahidə edərək bütün ictimai incəliyi və aktuallığı ilə ədəbiyyata gətirmək tənqidi realizmin başlıca yaradıcılıq prinsiplərindən olmuşdur. Yəni sadəcə bir ictimai detalı, ünsürü, hissəni, özü də ayrılıqda deyil, bütöv bir ictimai mühiti, prosesi, epoxanı vahid bir varlıq səviyyəsində, tam bir vəhdətdə dərk və qavrayış bu realizmin mahiyyətində dayanırdı. Tənqidi realizm *"mövcud ictimai qaydaların əsaslarını tənqidə məruz qoyur"* [12, s. 35-36]. Bir az da dəqiq desək, insan problemini məhz ictimai mühitlə bir müstəvidə, vahid kontekstdə, vəhdətdə götürmək tənqidi realizmin ictimai qavrayış prinsipinə uyğundur. Bu baxımdan C.Məmmədquluzadənin "Çay dəsgahı" və M.Ə.Sabirin "Bir məclisdə 12 kişinin söhbəti" əsərləri tam mənasında tənqidi realizmi müəyyənləşdirməsə də, vacib ictimai ehtiyac və problemi – sosial ədalət və sadə insanların haqq və hüquq məsələlərini bədii ehtiyaca çıxarmaq, olanlardan olmayanlara, və yaxud olmayanlardan olanlara təqdim üsulu ilə ədəbi problemi təsbit etmək, ictimai problemlərin günahkarını bədii müstəviyə gətirmək baxımından ciddi əhəmiyyət kəsb edirdi. Tənqidi realizmi hərtərəfli ədəbi cərəyana çevirən "Molla Nəsrəddin" jurnalının "Tiflis, 1906" başlıqlı məqaləsi isə Azərbaycan tənqidi realizminin vacib ideya-siyasi xətti və ədəbi ideallarını özündə əks etdirmişdir. "Çay dəsgahı" əsəri bir çox hallarda maarifçi realist əsər olaraq səciyyələndirilsə də, fikrimizcə, nə qədər mükəmməl olmasa da, tənqidi realizmin Azərbaycan ədəbiyyatında parlayan işığı kimi görünməyə başlamış, tənqidi düşüncəyə ictimai problemləri ümumiləşdirən "sınmış bardağın faciəsi və günahkarı" problemini gətirmişdir. Ümumiyyətlə, tənqidi realizmi daha çox "sınmış bardağın faciəsinin təsviri" kimi xarakterizə etmək doğru olar. "Bir məclisdə 12 kişinin söhbəti" əsərində də, ictimai ədaləti pozan qüvvələr, yəni günahkarlar təqdim edilmişdir. Bundan başqa pozitivizmin – maarifçi realizmin xalq hikməti və ya müdrikliyindən bədii əhvalata gəlmək ənənəsinə tənqidi realizm sədaqət göstərərək onu davam etdirmişdir. N.Vəzirovun həm mövzu seçimi və ya ifadəsində atalar sözlərindən istifadə etmək və ya bədii əhvalatı atalar sözü və ya məsəl müstəvisində qurmaq ənənəsi E.Sultanovun timsalında maarifçilikdən tənqidi realizmə keçid ədəbiyyatında davam etdirilmişdir. C.Məmmədquluzadənin tənqidi realizmində də bunu aydın görmək mümkündür. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, tənqidi realizmin xarakteri dövrün ictimai, iqtisadi, siyasi və mədəni xarakteri ilə bağlıdır. XX əsrin əvvəlləri ictimai şəraitinin çağırışları və ehtiyacı həm romantizmin, həm də tənqidi realizmin vacib və başlıca ideya əsasını müəyyənləşdirmişdir. Təsadüfi deyil ki, bizim fikrimizcə, məhz bu ilkin, başlıca ideya əsasda Azərbaycan romantizmi ilə tənqidi realizmi bir-birini tamamlayırdılar. Romantizmin ideya müəllifi, böyük fikir adamı Əli bəy Hüseynzadə ilk mətbu əsərlərindən olan "Hali-vətən" şeirində, bizim fikrimizcə, məhz islam şərqinin, türk dünyasının mövcud ictimai həmlələrə hazır olmağa çağırmaq məzmununa malikdir:

Düşmən qırır qapuyu,
Biz evdə qayğusuzuz.
Nə evləri ayırır,
Nə bir evli oluruz! [2, s. 472]

Ə.Hüseynzadə də bu ilk yaradıcılıq kredosu xarakterinə malik əsərində ətalət və tənbəlliyi islam aləminin ayağına əngəl-kələf bilmiş, "Nə getmədə irəli, Nə dönmədə geriyə" [2, s. 472], deyə təəssüf və kədərini ifadə etmişdir.

Ümumiyyətlə, XX əsrin əvvəllərində yeni dünya nizamının yarandığı bir vaxtda vətən, xalq, millət naminə birləşmək, maariflənmək və inqilabi mübarizəyə hazır olmaq çağırışları yer tutmuşdur. Fikrimizcə, H.Cavidin ilk dram əsərlərindən olan "Ana" əsərində də dünyanın mövcud inkişafının hiyləgərlikləri və xainliyinə qarşı Səlma ananın timsalında mövcud mənəviyyatın hələ hazır olmadığı faciəsi əks etdirilmişdir. Məhəmməd Hadinin inqilabi romantizmi də məhz hürriyyət uğrunda mübarizə çağırışları kimi xarakterizə edilə bilər. Hətta qətiyyətlə deyə bilərik ki, romantiklər arasında inqilabi romantizmi ilə diqqət cəlb edən, tənqidi realizmə meyil edən də M.Hadidir. C.Məmmədquluzadənin Azərbaycan tənqidi realizminin bədii işartılarını təşkil edən "qırılmış çay bardağının dramı" əks olunan "Çay dəsgahı", "Danabaş kəndinin əhvalatları" əsərlərində də baş verən bədbəxtliklərin timsalında qəhrəmanların bu problemlərə hazır olub-olmadıqları diqqət mərkəzinə gətirilmişdir. Tənqidi realizmin bədii-estetik səciyyəsini təşkil edən "Çay dəsgahı" əsərinin problemini də sosial ədalət və ictimai haqq məsələsi təşkil etmiş, xalq müdrikliyinə uyğun olaraq "xanım qıran qabın səsi çıxmaz" məzmunu ilə ehtiva olunmuşdur. Böyük ədib bu ənənəni uğurla davam və inkişaf etdirərək "Danabaş kəndinin əhvalatları" ("Eşşəyin itməkliyi") əsərinin bədii əhvalat və ideyasının daha təkmil tənqidi realist, estetik məsələ təşkil edən "Allah sevdiyi quluna əvvəlcə eşşəyini itirər, sonra da tapdırarmış" deyiminin təşkil etdiyini düşünürük. Sanki C.Məmmədquluzadə "Eşşəyin itməkliyi" əsərində həm bədii fabulanı, həm də Xudayar bəyin əhvalatı timsalında K.Marksdan gələn *"Əvvəlcə eşşəyi oğurladı, sonra tapdı, kəndin qəhrəmanı oldu"* fikrini ifadə etmişdir. Məhz bu səbəbdən düşünmək olar ki, "Eşşəyin itməkliyi"ndəki obrazlar çox müti, sakit və passivdirlər. Çünki əsərin əvvəlində, girişində də deyildiyi kimi, ictimai mühitdə "*avamın hümmətini görmək*" hələ mümkün deyil, ictimai mühit hələ avamdan gileyli qalıb. Çünki mühit özü hələ sakitdir, avamın tərki və davranış nümunəsini hələ ortaya çıxarmayıb. Hər kəsin gözü qıpıqdırsa, Məhəmmdəhəsən əminin də gözüqıpıq olması təbiidir. Amma Novruzəli belə deyil. Novruzəli diribaş, qaynar, vurub-yıxmağa hazır, yeri gələndə "düşməni" yaxasından tutub yerə gətirməyə qüdrətli fəal bir insandır. Çünki bu qəhrəman 1903-cü ildə ortaya çıxan bir əsərin baş qəhrəmanıdır. Bu dövrdə isə artıq nəinki Rusiyada, hətta Azərbaycanda, Bakıda da zəhmətkeşlər fəal ictimai qüvvə kimi üsyan və tətillər edərək ictimai-siyasi təsisatlar, mexanizmlə savaşırdılar. Buna görə də yaxasından tutub yerə gətirmək kimi fəal davranış nümunəsi ucqar İtqapan kəndinin Novruzəlisinə də çatıb, amma dost və düşməni tanımaq, ictimai ehtiyacı dərk baxımından Novruzəlinin kəsiri var. İctimai düşməni tanımaq baxımından Novruzəlilər yenə də həmin "hümməti görünməyən avam"dır ki, qalıblar. Problemin bu cür qoyuluşu və təqdimin bu cür mükəmməlliyi səbəbindəndir ki, "Poçt qutusu" əsəri Azərbaycan tənqidi realizminin "manifesti" kimi səciyyələndirilmişdir. Buna görə məhz belə dövrdə, zamanın çalxalandığı, milli mənafe, maraqların əhəmiyyət qazandığı, ictimai inkişaf, texniki tərəqqinin qapını çaldığı bir vaxtda xalqın və vətənin taleyi hər bir ziyalının yaradıcılıq amalına çevrilmişdi ki, "Molla Nəsrəddin"lə çulğaşıb bir araya gələn, özünəməxsus bədii yaradıcılıq üslubu ortaya qoyan tənqidi realizm də məhz bu cərəyan və ya ədəbi hərəkatlardan biri idi.

Tənqidi realizm haqqında bəhs olunan *"tənqidi realizmin əsasında, adətən, bir qayda olaraq, ifşa olunan burjua əlaqələrinin real gerçəkliyi dayanır. O, qəti inkar məzmunu daşıyır*

*və mövcud quruluşun ictimai sütunları əleyhinə çevrilir”* [3, s. 152] fikrilə tam mənasında razılaşmaq doğru deyil. Əvvəla, bizim fikrimizcə, tənqidi realizm fərqli anlayışlarla adlandırılsa da, daşıdığı missiya və səciyyəsinə görə sırf milli xarakter daşıyır. Belə ki, bu yaradıcılıq və düşüncə tərzinə hətta naturalizm, realizm, tənqidi realizm kimi müxtəlif istilahlar da işlədilib. Bu istilahlar bir-birinə sinonim olaraq daha çox ideoloji, eləcə də metodoloji istiqamətdən asılı olaraq meydana çıxıb. Mənbələrə diqqət edilərsə, Avropa və bu kimi ölkələrin elmi mənbələrində bu cərəyan daha çox “realizm” və yaxud “naturalizm” olaraq adlandırılıb. Doğrudur, bəzən, mənbələr bunlardan hər hansı biri haqqında (naturalizm və ya realizm), bəzən də paralel olaraq hər ikisi haqqında ayrı-ayrı cərəyan olaraq bəhs edib. Bu isə, hələ də elmi fikirdə bu iki cərəyanı fərqləndirən və səciyyələndirən bir xarakterik, konkret elmi fikrin olmaması ilə bağlıdır. B.Əhmədov istilaha ideologiyanın da təsirini müşahidə edərək “tənqidi realizm” istilahının bu ədəbi cərəyanın mahiyyətini məhdudlaşdırmaq aktı kimi qiymətləndirmişdir [1, s. 245]. Bu, ayrı məsələdir ki, tənqidi realizm ümumdünya ədəbi prosesinin məhsulu olmaqla bərabər, həm də milli ictimai-tarixi şəraitin nəticəsi, onun məntiqi yekunudur. Lakin müəllifin sovet ədəbiyyatşünaslığının məhsulu hesab etdiyi “tənqidi realizm” istilahı əvəzinə ümumdünya ədəbi prosesinin məhsulu hesab etdiyi “realizm” anlayışını qoyması, əslində müəllifin avropasayağı yanaşma məntiqinin nəticəsidir. Lakin alim ona diqqət yetirmir ki, bütün xalqlarda inqilab və ya istiqlaliyyət anlayışları fərqli terminlərlə təzahür etsə də, məzmun və mahiyyətcə eynidirlər. Rene Vellek özünün “Ədəbiyyat tarixində realizm anlayışı” adlı əsərində “realizm” və “naturalizm” anlayışlarının gah eyni, gah fərqli anlayışlarda işləndiyini, bunu ayrı-ayrı xalqların ədəbiyyatına görə fərqlilik kəsb etdiyini, ingilis və fransızlardan fərqli olaraq rus ədəbiyyatında realizmin fərqli və geniş məzmun kəsb etdiyini bildirmişdir [13]. Bu da bir daha göstərir ki, anlayışlar ayrı-ayrı xalqların ədəbiyyatına görə fərqli məzmunlar təzahür etdirir və bu, tənqidi realizm anlayışının da sırf milli tarixlə bağlı olub, özünəməxsus milli məzmun kəsb etdiyi anlamına gəlir. Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, ədəbi cərəyanlar konkret ictimai-tarixi vəziyyətin ədəbi-mənəvi ehtiyacı olaraq yaranıb inkişaf etdiyi kimi, müəyyən dövrə qədər fəaliyyət göstərir və bir missiya həyata keçirir. Bu baxımdan tarixdə mühüm dönüş nöqtəsinə çevrilən Fransa burjua inqilabını (1789) hazırlayıb həyata keçirilməsini ehtiyaca çevirən müəyyən ictimai, siyasi, mədəni, iqtisadi və s. tələblər olduğu kimi, inqilabın baş verməsi ilə də yeni ictimai-tarixi vəziyyət hökm sürməklə yeni dəyər və milli keyfiyyətlərin təşəkkülü və inkişafına zəmin hazırlamışdır. Belə ki, sənətdə insanı konkret ictimai münasibətlər daxilində bütün vacib, olduğu keyfiyyətlərlə təsvir və təqdim etmək mühüm ədəbi meylə çevrilmiş, tənqidi realizmin də ortaya çıxması və inkişafına, dünya xalqlarının ədəbi-estetik yaradıcılıq üslubuna çevrilməsinə zəmin yaratmışdır. Bu cəhətdən qeyd etmək lazımdır ki, Azərbaycanda da böyük tarixi dönüşü yaratmaq məqsədilə fövqəladə, əzəmətli fikir və ideyalar ortaya qoyan ədəbi cərəyan romantizm idisə, milli şüuru, insanları əxlaq, düşüncə, davranış, dil, mənəviyyat və b. mühüm keyfiyyətlərlə hazırlayıb mübarizəyə çıxaran məhz tənqidi realizm idi. Bu mənada Azərbaycan tənqidi realizminin başlıca ədəbi missiyası və ideoloji prioritetləri ümumvətəndaş birliyi, milli oyanıqlıq və vətəndaş mübarizəsi təşkil edirdi. Tənqidi realizm öz adına uyğun düşüncə-idrak metodu ilə yeni yaşayış və tarixi dönəmə insan kapitalı hazırlamaq kimi ağır bir vəzifəni həyata keçirməyə məsul olmuşdu. Təsadüfi deyildi ki, C.Məmmədquluzadə başda olmaqla M.Ə.Sabiri, Ə.Qəmküsarı, Ə.Haqverdiyevi, Ə.Nəzmini, M.S.Ordubadini və b. bir araya gətirib eyni üslub ətrafında birləşdirən böyük ideyalara gedən yol, əqidə və amallar idi.

Məhz belə tarixi bir dönəmdə – inqilabi epoxa dövründə ortaya çıxan tənqidi realizmin başlıca ədəbi-nəzəri məsələlərindən biri oyaq, tənqidi və təhlili düşüncəyə sahib, konkret tarixi çağırışlara cavab verməyə müvəffəq, dostu və düşmənini tanıyan, ümumvətən və ümumxalq maraqlarına sahib, müasir dünyanın elmi-texniki və bazar münasibətlərinə həssas, hazırlıqlı, adekvat cavab verməyi bacaran ağıllı və savadlı vətəndaşlar hazırlamaq idi. Buna görə də yeni dünyanın astanasında Azərbaycan ictimai mühitində mövcud olan bütün təbəqələrə, peşələrə xas insanları ictimai münasibətlər daxilində mövcud əxlaqı, davranışı, düşüncələri, vərdişləri, inanc və əməlləri, niyyət və qabiliyyətləri və s. ilə təqdim etmək ümdə bədii ehtiyaca çevrilmişdi. Buna görə C.Məmmədquluzadə özü yazdığı kimi Usta Zeynallardan başlayaraq bütün təbəqələrin adamlarını bədii yaradıcılığın obyektivinə gətirməklə yeni dövrün çağırışlarını dilə gətirmiş oldu. Bu çağırışlara səs verən Sabir çalxalanan zəmanənin ruporundan ictimaiyyətə baxaraq əkinçiləri, fəhlə babaları, qazı, molla, zahid, bəy, ağa və b. zəmanə adamlarını yeni şeirin bədii müstəvisinə daxil etdi, onların konkret əhvalı, niyyəti, düşüncəsi, amalı, marağı ilə təqdim etməklə yeni dövrün çağırışlarının da panoramasını ortaya qoydu. Buna görə də tənqidi realist yazıçılar bir tərəfdən bədii varlığın dolğun xarici təsvirini verir, digər tərəfdən insanın psixoloji-mənəvi aləmini təqdim edir, ictimai şəraiti vacib tərəflərilə göstərməyə çalışırdılar [14]. Buna görə idi ki, tənqidi realist ədəbiyyatın qəhrəmanlarının xarakterləri, dil, davranış, inanc xüsusiyyətləri kimi bütün incəliklərinə qədər həssaslıqla təqdim edilir, xarici görünüş və ətraf mühitin dəqiq təsviri verilirdi. Məhəmmədhəsən əminin kasıblığı onun qaranlıq evinin taxçalarının boşluğundan, əyalının əyin-başından, süfrəsinin kasadlığından tam aydınlığı ilə təzahür edirdi. Amma Qazının evinin şəraiti və taxçalarının zənginliyi, əyalı və özünün əyin-başı nə qədər zəngin olmasından xəbər verirdi. Usta Zeynalın kasıblığı əsərin sonunda paltarının yuyulması səbəbilə onu gözləmək məcburiyyətində qalması detalında öz təsdiqini tapmışdı. Sabirin əkinçi və fəhlələrinin buğda və pul üçün yalvarışları, aclıqdan olan zarıltıları yoxsulluqlarının aydın ifadəsi kimi qiymətləndirilə bilər. Bütün bunlar isə sosial münasibətlərin ortaya çıxardığı ictimai təbəqələşmənin bədii ehtivası, əksi olaraq öz təzahürünü tapır. Bu bir tərəfdən onunla bağlı idi ki, tənqidi realizm özünün ədəbi-estetik səciyyəsinə görə bədii varlığın, tipin hərtərəfli vəziyyətini sosial, iqtisadi və mənəvi uyğunluğu ilə təqdim etməyə çalışır, digər tərəfdən də çatan və çatmayan tərəflərin aydın dərk olunmasına imkan yaradı, səbəb və nəticəni müyəyyənləşdirməyə sövq edirdi.

Tənqidi realizm üçün *““tənqidi” epiteti onu ifadə edir ki, uyğun yaradıcılığın müəllifi diqqətini neqativ yerlərdə təkrarlana bilən həqiqətlərə çəkir, təsvir edir və qiymətləndirir. Tənqidi realizm yeni bir şəkildə insanın və ətraf mühitin əlaqəsini təsvir edir. İnsan xarakteri ictimai şərtlərlə üzvi bir əlaqə ilə ortaya çıxır. Dərin sosial təhlilin mövzusu insanın daxili dünyasına çevrilir, tənqidi realizm eyni zamanda psixoloji hala gəlir”* [15]. Bu mənada ayrı-ayrı zaman mərhələlərində eyni və ya bənzər hadisələrlə təzahür edən milli istiqlaliyyəti əldə etmək forması həm də eyni məqsədə – yeni ideya gerçəkləşdirməyə və yeni yaşayış yaratmağa xidmət edir. Nə vaxt, hansı zaman çərçivəsində baş verməsinə baxmayaraq ümumxalq oyanışı və yeni düşüncəyə xidmət edən və hədəfi, məqsədi milli istiqlaliyyət, millət, vətən və dil olan fikir cərəyanı dünyanın bir yerində realizm, bir yerində isə tənqidi realizm adlanmaqla fərqli elmi prinsip təzahür etdirmir. Yaranma şərtləri və səciyyəsinə görə ümumi-oxşar xüsusiyyətlərə malik olsalar da, əgər sırf milli xüsusiyyətə malik deyilsə, onu tənqidi realizm adlandırmaq mümkün deyil. Fikrimizcə, hər bir xalqın ictimai fikri və ədəbiyyatı üçün özünəməxsus olan tənqidi realizm milli ictimai-tarixi kontekstdə məhz milli ideyadan doğaraq yaranır. Bu

baxımdan sırf milli ictimai-tarixi kontekstdə məhz milli ideyadan doğaraq yaranan tənqidi realizmi dünya ictimai və ədəbi inkişafı kontekstində eyni nəzəri prinsiplərlə ölçmək doğru deyil. Xüsusilə, tənqidi realizmi burjua əleyhinə ictimai hərəkat kimi də dəyərləndirmək, fikrimizcə, qəti olaraq doğru deyil. Əvvəla, Azərbaycanda kapitalizm o dərəcədə qətiləşməmişdi ki, burada burjuaziyanın ciddi rolundan bəhs oluna bilsin. Diqqət edilərsə, Azərbaycanda feodal adət-ənənələri daha çox yer alırdı. Azərbaycan tənqidi realist ədəbiyyatında sırf kapitalizmi, burjuaziyanı hədəfə çevirib onun təməlini sarsıdan əsər tapmaq bəlkə də mümkün deyil. Biz bu nəzəri müddəanı sırf sovet ideologiyasının kapitalizm və burjuaziya əleyhinə müxalif fikrindən nəticələnən bir fikir olaraq yarandığını qəbul edirik. Fikrimizcə, sovet ədəbiyyatşünaslığındakı tənqidi realizmlə bağlı nəzəri prinsiplərlə mövcud tənqidi realizm nəzəriyyəsi arasında ciddi fərqliliklər vardır. Bunu sovet ideologiyasına uyğun olaraq sovet humanitar və ictimai elmlərinin də kapitalizmə qarşı mübarizə missiyasının nəzəri konsepsiyasından doğduğunu anlamaq daha doğru olardı. Bu qədər qəti, inkarçı münasibət yalnız sovet tənqidi realizm konsepsiyasına hakim olduğunu deməliyik. Belə ki, isti, qanlı müharibələrdən tutmuş soyuq, ideoloji müharibələrə qədər böyük bir zaman çərçivəsində davamlı olaraq birbirilə savaşan Amerika-Avropa kapitalizmi ilə Sovet sosialist düşüncəsi və ideologiyası kontekstində məhz eyni ədəbi və ictimai fikir missiyasına bir yerdə "realizm", digər yerdə "tənqidi realizm" adının qoyulması özü də bu fikir və yaradıcılıq tərzinin sosialistcəsinə kapitalizm əleyhinə ideoloji silah kimi işlədilməsi məqsədini ortaya qoyur. Bu da qeyd edilən məsələyə işıq tutur ki, rus və Avropa mənbələrində tənqidi realizm (və ya realizm) ədəbi cərəyanının izahı, nəzəri əsasları, prinsipləri və fəlsəfəsi də fərqli şəkildə izah edilir. Xüsusilə, sovet ədəbiyyatşünaslığında tənqidi realizm burjuaziya və burjua əxlaqı əleyhinə qatı inkarçı, inqilabi ideyalara söykənən və öz nəzəri əsaslarına uyğun olmayan sosial-ictimai quruluşları yıxan, yerində yenisini yaratmağa istiqamətlənən bir ədəbi fikir cərəyanı olaraq izah və şərh edilir. Avropa ədəbiyyatşünaslığı isə daha çox tənqidi realizmin pozitivist fəlsəfə ilə naturalizmi birləşdirərək yeni əxlaq, yaşayış, düşüncə tərzi, qaydaları gətirən, islahatçı, qurucu və ictimai-sosial quruluşları yenidən öz nəzəri prinsiplərinə uyğun yerbəyer edən ədəbi fikir cərəyanı olaraq təqdim edir. Bu mənada B.Əhmədov da "tənqidi" istilahının düzgün anlaşılmaması səbəbilə müxtəlif yerlərdə bu ədəbi cərəyana fərqli yanaşmalar ortaya çıxardığını qeyd etmişdir [1, s. 246]. Çox zaman tənqidi realizmi "yıxıcı, dağıdıcı, qırıcı" kimi anlayan ədəbiyyatşünaslıqdan fərqli olaraq, əgər əsərlərin özünü də diqqətlə təhlildən keçirsək, bəzən bədii cəhətdən mübaliğəli, emosional, şişirdici sözləri nəzərə almasaq, heç də tənqidi realizmin yıxıcı, dağıdıcı bir missiya daşımadığını görərik. Əksinə, bizim fikrimizcə, tənqidi realizmin əsl mahiyyətini köhnə anlayışlara yeni şərait, ictimai dərk və tələblər müstəvisində yanaşaraq yerbəyer etmək, qurmaq və islah etmək olduğunu görərik. Hər şeyi yıxıb yenini yaratmaq kimi bir ictimai fəaliyyət ola bilməz. Artıq bir az əvvəl də deyildiyi kimi, tənqidi realizm özünəməxsus islahedici missiya daşıyaraq yeni ictimai düşüncə və həyat, yaşayış tərzi hazırlamağa xidmət edən, köhnəni dəyişib kamilləşdirən bir realizm mərhələsidir. Hətta inqilab nəzəriyyəçilərindən biri kimi Sovet dönəminin ən nəhəng ideoloqlarından və banilərindən biri olan K.Marks da inqilabı dəyişikliyi heç də "hamam təknəsindəki kirli su ilə birlikdə uşağı da götürüb atmaq" kimi bir davranış olmadığını, əksinə, "uşağı götürməklə kirli suyu atmaq" kimi köhnənin üzərində onu islah etməklə yenini qurmaq və yaratmaq ideyasını irəli sürmüş və müdafiə etmişdir. (Əlbəttə, Rusiyada inqilabın köhnəni yıxıb yenini yaratmaq ideyası ideoloqların, yaxud nəzəriyyə və nəzəriyyəçilərin günahı deyil, onu necə həyata

keçirənlərin günahıdır – R.Q.). XX əsrin əvvəllərindəki Rusiya inqilabi prosesləri Azərbaycan tənqidi realizminin yaranmasını da şərtləndirmişdir. Diqqət edilərsə, Azərbaycan klassik tənqidi realizminin meydana çıxma mərhələsi iki inqilabın ərəfəsi – 1905-1917-ci illər olaraq göstərilmişdir. Y.Qarayevin bu fikrini və izahını düzgün yanaşma qəbul etmək olar ki: *"Danabaş kəndi, yaxud İtqapanlı artıq feodalizm dövrünün feodal-patriarxal kəndi deyildi, imperializm və proletar mübarizələri dövrünün [ümumrusiya və dünya miqyasında] feodal-patriarxal kəndi idi"* [3, s. 155]. Burada müəllifin "ümumrusiya və dünya miqyasında", deyə izahı və münasibətini verməsi tamamilə doğru məntiqdir. Bu mənada bu inqilabi hadisələri milli tənqidi realizmin yaranması səciyyəsi və səbəbi kimi qiymətləndirmək mümkündür. Bilavasitə inqilab yaratmağa qabil olan davranış forması əgər Mirzə Cəlilin "Poçt qutusu"nda Növruzəlinin rus məmurunu kötəkləməsi nüansı ilə ölçülərsə (ki, bu nüansa müasir ədəbiyyatşünaslıqda daha çox üstünlük verilir – R.Q.), demək ki, Mirzə Cəlil yaradıcılığı 1882-ci ildən mövcud olmasına baxmayaraq, "Poçt qutusu"na qədər yaradıcılıq nümunələrini tənqidi realist ədəbiyyat nümunələri adlandırmaq doğru olmaz. Belə ki, Y.Qarayev "Poçt qutusu" əsərini tənqidi realizmin proqram və manifesti kimi xarakterizə edirdi [3, s. 197]. Bu faktın üzərində dayanan B.Əhmədov da mövcud ədəbiyyatşünaslıqda olan bu yanaşmanı qəbul etməyərək bu yanaşmanın ideoloji səbəbdən irəli gəldiyinə nəzərləri cəlb edərək haqlı olaraq mübahisə açırdı ki, *"onda C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları"nı [1894], "Poçt qutusu"nu [1903] hara qoymaq olar?"* [1, s. 246]. Buna görə idi ki, bu kimi mübahisələrə qoşulan X.Məmmədov da C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" əsərinin tənqidi realizmdə yeri ilə bağlı müzakirə açaraq sosial təhlilin olmaması səbəbilə onun tənqidi realizmin bütün tələblərinə cavab vermədiyini, maarifçi realizmdən tənqidi realizmə keçid əsəri olduğunu əsaslandırmağa çalışırdı [6, s. 232-233]. Bütün bunlar elmi təhlil baxımdan yüksək əhəmiyyətə malik olsa da, fikrimizcə, burada da öz-özünü inkar, ziddiyyətli və mübahisə doğuran məqamlar vardır. Belə ki, alimin "Əhvalatlar"da sosial təhlilin olmadığını iddia etməsi özünü doğrultmur. Halbuki ədibin əsərləri içərisində ən yaxşı sosial təhlil olan əsəri "Danabaş kəndinin əhvalatları" povestidir. Bu əsərdəki sosial problemləri təhlil üsulu bir nümunə və əsərin qayəsinin, ədəbiyyat tariximizdə oynadığı rolu və tutduğu mövqeyi qiymətləndirmək baxımından çox əhəmiyyətlidir. Burada müəllif tərəfindən çox böyük ustalıqla sadə Azərbaycan insanı – kəndlisinin hər cür yoxsulluq, problem, qaragünçülük dərdinin sosial təhlili verilmişdir. Eyni zamanda, zalımdan mərhəmət ummağın əksinə, zalıma qaşı mübarizə aparmaq fikrini artıq çoxdan ədibin sələfi M.F.Axundov yazmış və qənaət olaraq müəyyənləşdirmişdi. Bizim fikrimizcə, əsər daxilində ardıcıl olaraq yoxsulluqdan adamlığa gətirilmiş Xudayar bəyin intəhasız zülm, özbaşınaıq və əxlaqsız davranışları sayəsində kənddə üç yerdə matəm qurulması kimi nüansların verilməsi elə Azərbaycan insanının qorxaq, müti, gözüqıpıq, astagəl, dinməz, sakit olması səbəblərini təqdim edir. Həm də Xudayar kimi özünü bəyliyə verən adamlar üçün nə qədər münbit, mümkün bir şəraitin olduğuna da diqqət çəkir. Bu baxımdan, bizə görə, bu cür təhlil və təqdim vasitəsilə ədib mərhəmət və ədalət ummaq deyil, ictimai şəraiti, qanunları və quruluşu rədd etmiş, ağır təkzib, lənət və inkar qarşısında qoymuşdur. Belə ki, görməmək və anlamamaq mümkün deyil ki, Xudayar kimi bir nakəsi kəndxuda təyin edən tərbiyəsiz və irticaçı sosial mühitin özüdür. Əgər qazı və molla rüşvətxor olmasaydı, Allahın qanunlarını şəxsi qazancı xətrinə pozmaq kimi bir əxlaqsızlıq və imansızlıq etməsəydi, Xudayarın da Zeynəb arvadı özünə arvad etdirməsi, bunun üçün də Məhəmmədhəsən əminin eşşəyinin satılmasına da lüzum olmayacaqdı. Bu

arada Məhəmmədhəsən əminin zavallı balası Əhməd də, həyat yoldaşı İzzət də, Zeynəb arvadın balaları da işgəncə və zülmdən ölüb dünyadan getməyəcəklərdi. Bütün bunları aydın şəkildə şirin dillə təqdim edən müəllif, fikrimizcə, çox böyük ustalıqla sosial təhlil aparmış, sosial bəlaların da, ədalətsizlik, mərhəmətsizlik və zülmün də mənbələrini tapıb təqdim etmişdi. Söz yox, əsərin sonuna doğru acı təəssüratlar isə bu zülm mənbələrinə qarşı nifrət, inkar və lənət hissi formalaşdırmışdı. Bu mənada, bizim fikrimizcə, tənqidi realizmi inqilabi proseslər yox, inqilabi prosesləri tənqidi realizmin yaratdığını qəbul etmək daha məntiqli olardı. Çünki düşünülmüş, ideya-məfkurə proqramına malik, bir inqilabi hərəkatın nüvəsində yeni bir fikir, köhnəni tənqid, yeniyə mücadilə kimi hərəkətverici düşüncə tərzi hakimdir. Həm də bunu da əlavə etmək yerinə düşər ki, bir az yuxarıda deyildiyi və qeyd edildiyi kimi, bir sıra mənbələrdə deyilən tərzdə tənqidi realizm qəti olaraq "burjuaziya" və "burjua əxlaqı" əleyhinə yönəlmiş ədəbiyyat deyil. Bir az yuxarıda da deyildiyi kimi bu, bir tərəfdən sırf ideoloji, digər tərəfdən milli-tarixi məsələdir (Bunu unutmaq lazım deyil ki, xalqların tarixi ictimai-iqtisadi mərhələləri keçid formaları özünəməxsus və fərqlidir: bəzi xalqlar quldarlığı, bəziləri feodalizmi, bəziləri də kapitalizm ictimai-iqtisadi formasiyalarını görmədən irəliləmişlər. Bu mənada yuxarıda qəti şəkildə deyilən fikir bütün xalqların ədəbiyyatına və tənqidi realizm mərhələsinə şamil edilə bilməz – R.Q.). Ancaq bununla belə bu fikirlə yalnız şərti olaraq [!] razılaşmaq olar ki, Azərbaycanda hələ də kəndlərdə feodal-asılı münasibətlər hökm sürür, kapitalizmə keçid çox ləng gedirdi. Şəhərlərdə, xüsusilə sənaye mərkəzi olan Bakıda kapitalistləşmə nisbətən sürətlə addımlayırdı. Buna görə də Azərbaycanda kapitalizmlə feodalizmin xüsusiyyətləri birgə addımlayırdı. Elə bu baxımdan da ifadəni bir qədər dəyişərək "feodal və burjua əxlaqı əleyhinə", bir az da dəqiq desək, "qeyri-bərabərlik hökm sürən, ədalətsiz quruluş və idarəçilik əleyhinə" şəklində redaktə etməklə qəbul etmək olar. Azərbaycan tənqidi realistlərinin yaradıcılığına diqqətlə yanaşılsa, burada həm mülkədar, kəndxuda, ağa, bəy, həm də sahibkar, kapitalist zümrələri bərabər irəliləyirlər. Tənqid hədəfi olaraq da məhz həmin zümrələrin əxlaqsızlığı, zalımlığı, özbaşınalığı, istismarçılığı və s. özünə yer alır. Həm də ictimai-siyasi idarəcilikdə ikili üsulların mövcud olması Azərbaycan ictimai mühitində ikili asılılıqların da mövcudlaşmasına imkan açmış, beləliklə, ictimai geriliklərin, inkişafa maneəlik törədən əsas səbəblərdən biri və birincisinə çevrilmişdir. Bu, istər C.Məmmədquluzadənin, istər də Ə.Haqverdiyevin, M.S.Ordubadinin, M.Ə.Sabirin və başqalarının yaradıcılığı üçün xarakterikdir. Həm də bu fikri "burjuaziya və burjua əxlaqı əleyhinə", deyə qısa şəkildə deyil, həm də ziyalı-məmur zümrələrini də nəzərə alıb genişləndirməklə daha dolğun və sanballı ifadə etmək düzgün olardı. Çünki Fərrux bəy Vəzirov kimi ziyalılar da az deyildi ki, xalqı avamlıqda saxlamaqla onların avamlığından şəxsi mənfəətləri üçün istifadə edirdilər. Məmurlar da bu baxımdan daha ön cərgədə gəlirdilər ki, məmur əxlaqı, xalqa, millətə münasibəti, milli inkişafa cavabdehliyi məsələsi heç də az əhəmiyyət kəsb etmirdi. Əgər Mirzə Cəlilin Məhəmmədhəsəni yazıq və yoxsul idisə, bunun səbəblərinin birincisi Xudayar kimi kəndxudaları seçib başçı qoyan ictimai-siyasi sistemdə idi. Novruzəlini avamlıqda saxlayan onun xanı idi ki, avamlıqda qalan kəndli öz haqq-hüququndan bixəbər öz ömrünü ona sədaqətlə xidmətdə görürdü. Tənqidi realizmin birinci sırada avamlıqla mübarizə aparması səbəbi onların xalqı ictimai-hərəkətverici qüvvə görməsi və xalqı avamlıqda saxlamaqla onu asanlıqla istismar, idarə etmək, yönləndirmək, istənilən qərarı təlqin etmək məqsədindən irəli gəlirdi. Buna görə də tənqidi realistlər və onlara yaxın olan ədəbi qüvvələr hər cür avamlığa, hər cür xurafata qarşı mübarizəni ön sırada qoyurdular.

İkinci, müəlliflər özləri də bilmədən tənqidi realizmi realizmin bir mərhələsindən daha çox, ictimai fikir cərəyanı kimi dəyərləndirirlər. Diqqət edilərsə, xüsusilə tənqidi realizmin birbaşa tədqiqatçıları olan Nurillinin və Y.Qarayevin əsərlərində tənqidi realizm inqilabi hadisələr dövrünün məhsulu, iki inqilabın ərəfəsinin nəticəsi kimi qiymətləndirilir. Bu isə o mənanı verir ki, inqilabi missiya sona çatdıqdan sonra bu inqilabı yaradan ictimai düşüncə tərzi də öz fəaliyyətini bitirmiş və yeni ictimai dərk və düşüncə tərzinə qədəm qoymuşdur ki, bu da, sosialist realizmi anlayışını qəbul etməyə və ya müəyyən mənada yeni istilahla dəyişilmiş formada qəbul edib dəyərləndirməyə almaq deməkdir. Bu baxımdan tədqiqatları da qiymətləndirməklə bu fikrə gəlmək və altını cızaraq demək olar ki, ictimai vəziyyətdəki dəyişmələr və tələblər tənqidi realist düşüncəni aktuallaşdırıb zərurətə çevirməklə tənqidi realizmi fikir cərəyanına çevirir və yeni keyfiyyət dəyişiminə [sosialist realizminə] qədər davam edir. Belə ki, bədii keyfiyyətcə Axundov realizmi ilə Mirzə Cəlil realizmi bir-birindən fərqləndiyi və ayrı, fərqli, özünəməxsus xüsusiyyətlər kəsb etdiyi kimi, artıq Mirzə Cəlil realizmi ilə də Cəfər Cabbarlı və digərlərinin realizmi arasında keyfiyyətcə fərqli xüsusiyyətlər mövcud idi. Bu da onu göstərməkdədir ki, Y.V.Çəmənzəminlinin də fikirlərinə istinad etsək, Şura quruluşunun meydana gəlməsi, sosializmin yaranması ilə artıq tənqidi realizm bədii ədəbiyyatda öz missiyasını başa vurmaqla keyfiyyətcə yeni ictimai-tarixi şəraitə və onun realist təqdim, inikas tərzinə qədəm qoyur. Bu, Mirzə Cəlilin öncəki və son dövrlərdəki yaradıcılıq nümunələri arasındakı fərqdə də özünü aydın təzahür etdirir. Eyni qələmə mənsub olan "Ölülər", "Dəli yığıncağı" və "Ər" əsərləri arasında tam eyniyyət müşahidə etmək mümkün deyil. Bir az da dəqiq desək, artıq yeni cəmiyyət quruculuğu həyata keçirilən və yeni ideoloji mühitin, düşüncə tərzinin gətirildiyi və hakim olduğu bir dönəmdə tənqidi realizmlə ədəbi-bədii missiya aparmaq artıq mümkün deyildi. Çünki bu dövrdə artıq yenini yaratmaq kimi missiya aparıldığı bir şəraitdə yeniyə şübhə etmək, onu ələ salmaq, yenidən dəyərləndirmək və tənqidi düşüncə ilə baxmaq (tənqid üçün yetərli olsa da belə – R.Q.) nəinki mümkün deyildi, həmçinin ideoloji hakimiyyətin düşməninə çevrilərək özünü qurban etmək demək idi. Necə ki Mirzə Cəlilin ömrünün sonlarına doğru hakim ideologiya tərəfindən qəbul edilməməsi, davamlı təqib və təzyiq altında saxlanılması, tənqidi realizmin cəbbəxanası olan "Molla Nəsrəddin" jurnalının öz dəsti-xəttini, missiyasını dəyişməsi bu görkəmli ədibin ölümünə fərman verdi.

Lakin söz yox, bütün bunlara rəğmən, Azərbaycan milli tarixi inkişafı və ümumdünya siyasi tarixi kontekstində bunu qəbul etmək doğru olar ki: *"Bütün bunlar "Asiyanın oyanması" dövrünün, "mürgüləməkdə olan Rusiyanın inqilabçı proletariat, inqilabçı xalq Rusiyasına çevrildiyi" dövrün realist ədəbi-bədii fikirdə inikası idi"* [3, s. 154]. Məhz bu oyanışın, bu yeni düşüncə və dəyərlə yanaşma konsepsiyasının nəticəsi idi ki, ədəbi-nəzəri, estetik fikrə münasibət dəyişmiş, ədəbiyyat və onun idealı, problemi və estetikası məsələsi aktuallıq qazanaraq müzakirəyə çevrilmiş, *"birbaşa kəskin məfkurə təkbətəki, ədəbi döyüşlər", "ədəbiyyatın sinfi və ictimai mənası"* [3, s. 154] kimi müzakirəyə cəlb edilərək hər bir hərəkatın özünəməxsus şərhləri və tələblərilə özünə səciyyə qazanmışdı.

## ƏDƏBİYYAT


1. Əhmədov B.B. Azərbaycan ədəbiyyat tarixi / Əhmədov B.B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər. Bakı: Elm və təhsil, 2015, 552 s.
2. Hüseynzadə Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 480 s.

3. Qarayev Y.V. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980, 259 s.
4. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə. I c., Bakı: Öndər, 2004, 664 s.
5. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə. IV c., Bakı: Öndər, 2004, 472 s.
6. Məmmədov X.Q. "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər. Bakı: Yazıçı, 1987, 270 s.
7. Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917). Bakı: Ziya&Nurlan, 2004, 391 s.
8. Nazim Ə. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1979, 374 s.
9. Nəzərova A. Fəlsəfə terminlərinin izahLı lüğəti. Bakı: Elm və təhsil, 2014, 224 s.
10. Bhaskar R. Natüralizmin olanaklığı / Çev. V.S.Oyütle. Ankara: Pratika Yayınevi, 2013, 239 s.
11. Veber A. Felsefe tarihi / Çev. H.V.Eralp. İstanbul: Sosyal yayınlar, 1991, 454 s.
12. Проблемы реализма в литературах народов советского Востока: материалы совещ. 16-19 окт. 1972 г. Баку, 1972.
13. Vellek R. Edebiyat tarihinde realizm kavramı / Çevireni: S.Yüksel // https://isamveri.org/pdfdrg.
14. Гуляев Н.А. Критический реализм и его исторические корни // http://litena.ru/books/item/f00/s00/z0000033/st020.shtml
15. Критический реализм (19-20вв.) // http://www.km.ru/referats/B715088A87444E3BA85BF9716B1D290F
16. http://www.newworldencyclopedia.org/entry/Critical_realism.
17. http://tureng.com/tr/turkce-ingilizce/critical.
18. http://www.nedirnedemek.com/critical-nedir-critical-ne-demek.
19. http://blog.milliyet.com.tr/edebiyatta-gercekcilik—realizm-/Blog/?BlogNo=200532.
20. http://birgunkitap.blogspot.com/2013/04/elestirel-realizmin-manifestosu-guney.html.
21. https://www.frmtr.com/turk-dili-ve-edebiyati/6660196-bagitli-edebiyat.html

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ramizqasimli44@gmail.com***

**Ramiz Gasymov**

## LITERARY AND THEORETICAL FOUNDATIONS OF CRITICAL REALISM

The article examines the literary and theoretical foundations of critical realism. It is shown that critical realism is one of the literary trends that formed in Azerbaijani literature at the beginning of the twentieth century. The emergence of critical realism was natural and necessary at a time when serious historical changes were taking place in national and social thinking, when new socio-economic demands appeared, it was a revolutionary era. As is known, critical realism arose as a reaction to romanticism. This artistic style, concentrated mainly around the magazine "Molla Nasreddin", became a literary movement. New literary traditions brought by Jalil Mammadguluzade, in the context of his creative examples and the magazine "Molla Nasreddin" continued in the works of M.A.Sabir, A.Gamgusar, A.Nazmi, A.Hagverdiyev, M.S.Ordubadi, Yu.V.Chemenzeminli, U.Hajibeyov and others, and formed into a literary movement. "Criticality" is the main quality of critical realism. Criticism has become a method of thinking and understanding, reflecting mainly the concepts of demolition, de-

struction and reform. Critical realism is about getting to the essence of being and evaluating it from all aspects, showing what is and what is not, what is right and what is wrong. These are the main characteristics of critical realism. Therefore, skepticism is one of the main characteristics of critical realism. One of the characteristics of the critical realistic style is the destruction of idealized, revered concepts in the eyes of people or individuals through doubt and their rethinking from a positive perspective. Therefore, Azerbaijani critical realism, based on the classical heritage, especially oral folk literature, used folk laughter and humor and made it the main characteristic of the literary style. Thanks to this feature, a new lyrical poem was born – satirical poetry. J Mammadguluzade, A.Hagverdiyev, Yu. V. Chemenzeminli developed this style mainly in fiction, and M.A.Sabir, A. Nazmi, A. Gamgusar and M. S. Ordubadi – in poetry. Therefore, critical realism made a great contribution to the national awakening of the people and actively participated in the preparation of revolutionary events. In general, Azerbaijani critical realism played a great artistic role in the reader's understanding of social truth and active worldview.

**Keywords:** *critical realism, literary and theoretical foundations, Azerbaijani critical realistic literature, method of critical thinking.*

**Рамиз Гасымов**

## ЛИТЕРАТУРНО-ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ КРИТИЧЕСКОГО РЕАЛИЗМА

В статье рассматриваются литературно-теоретические основы критического реализма. Показано, что критический реализм является одним из литературных направлений, сформировавшихся в азербайджанской литературе в начале XX века. Возникновение критического реализма было естественным и необходимым в то время, когда происходили серьезные исторические изменения в национально-общественном мышлении, когда появлялись новые социально-экономические запросы, это была революционная эпоха. Как известно, критический реализм возник как реакция на романтизм. Этот художественный стиль, сосредоточенный главным образом вокруг журнала «Молла Насреддин», стал литературным течением. Новые литературные традиции, принесенные Джалилем Мамедкулизаде, в контексте его творческих образцов и журнала «Молла Насреддин» продолжились в творчестве М.А.Сабира, А.Гамгюсара, А.Назми, А.Хагвердиева, М.С.Ордубади, Ю.В.Чеменземинли, У.Гаджибекова и других, и оформились в литературное движение. «Критичность» – главное качество критического реализма. Критика стала методом мышления и понимания, отражающим в основном концепции сноса, разрушения и реформирования. Доходить до сути бытия и оценивать его со всех аспектов, показывать, что есть, а чего нет, что правильно и что неправильно – вот основные характеристики критического реализма. Поэтому скептицизм является одной из основных характеристик критического реализма. Разрушение идеализированных, освященных понятий в глазах людей или отдельных лиц посредством сомнения и переосмысление их с позитивной позиции — одна из характеристик критического реалистического стиля. Поэтому азербайджанский критический реализм, основанный на классическом наследии, особенно устной народной литературе, использовал народный смех и юмор и сделал его основной характеристикой литературного стиля. Благодаря

этой особенности родилась новая лирическая поэма – сатирическая поэзия. Дж.Мамедгулузаде, А.Хагвердиев, Ю.В.Чеменземинли развивали этот стиль преимущественно в художественной прозе, а М.А.Сабир, А.Назми, А.Гамгюсар и М.С.Ордубади – в поэзии. Поэтому критический реализм внес большой вклад в национальное пробуждение народа и активно участвовал в подготовке революционных событий. В целом азербайджанский критический реализм сыграл большую художественную роль в понимании читателем социальной правды и активного мироощущения.

**Ключевые слова:***критический реализм, литературно-теоретические основы, азербайджанская критическая реалистическая литература, метод критического мышления.*

*(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 07.09.2024**
**Son variant 04.10.2024**